# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Səs" qəzeti 35 illik şərəfli tarixi yolda!



5

## "Azərbaycan bu sahədə dünya miqyasında aparıcı ölkələr sırasındadır"




2

SƏS

№ 002 (7412)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

9 yanvar 2026-cı il.
Qiymәti 1 manat

# Naxçıvanın Zəngəzur dəhlizi üçün əhəmiyyəti böyükdür




3

## Kadr məsələsi yenidən gündəmdə



4

## Güneydə etirazlar nəticə verməyə başlayır



6

## Əks-urbanizasiya prosesi necə təmin edilə bilər?



6

## "Kənd çolpası" adı ilə aldatma: bazarlarda rənglənmiş toyuq oyunu



8

## "Dünyada gücün hüququ var, hüququn gücü yoxdur!"



5

# “Azərbaycan bu sahədə dünya miqyasında aparıcı ölkələr sırasındadır”






***Yanvarın 8-də Bakıda, “Gülüstan” sarayında Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib.***

## *Bakıda “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılış mərasimi keçirilib*

Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib. Dövlət başçısı bunu ölkəmizin həyatında əhəmiyyətli hadisə və əlamətdar bir gün kimi qiymətləndirib. Qeyd edib ki, enerji potensialımızı gücləndirəcək bu stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcəkdir.

“Son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır

Bütövlükdə deyə bilərəm ki, Azərbaycanda enerji sisteminin müasirləşdirilməsi, modernləşdirilməsi, inkişafı son illər ərzində əsas prioritetlərdən biri kimi qəbul edilmişdir. Demək olar ki, son 20 il ərzində bizim enerji sistemimiz, yəni generasiya gücləri, böyük dərəcəli yarımstansiyalar və ötürücü xətlər tamamilə yenilənmişdir.

Son 20 il ərzində ölkəmizdə yaradılmış generasiya gücləri bütün əvvəlki dövrlə müqayisədə təxminən 3 dəfə artmışdır. Bu gün bizim generasiya gücümüz təxminən 10 min meqavata bərabərdir. Bu, əgər belə demək mümkündürsə, tarixi rekorddur. Ancaq nəzərə alsaq ki, bundan sonra növbəti illər ərzində bir çox yeni bərpaolunan enerji generasiya gücü yaradılacaq, əlbəttə ki, bu rəqəm daha da artacaq və bizə imkan verəcək ki, həm artan daxili tələbatı lazımi səviyyədə təmin edək, həm də elektrik enerjisini daha böyük həcmdə ixrac edək”- dövlət başçısı bildirib.

Ölkə Prezidenti bu sahədə görülən və görüləcək digər işləri də təhlil edib: “Keçən il Mingəçevirdə istismara verilmiş ənənəvi elektrik stansiyasının generasiya gücü təxminən 2000 meqavata bərabərdir və bu gün Azərbaycan enerji təminatı, enerji təhlükəsizliyi nöqteyi-nəzərindən özünü çox rahat hiss edir. Bu yaxınlarda 230 meqavat gücündə Günəş elektrik stansiyası istismara verilmişdir. Bu gün 240 meqavat gücündə külək elektrik stansiyası, işğaldan azad edilmiş ərazilərdə - Cəbrayıl rayonunda hazırda üç Günəş elektrik stansiyası inşa edilir. Bu üç stansiyanın ümumi potensialı 340 meqavatdır.

Bu gün ölkəmizin müxtəlif yerlərində bərpaolunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpaolunan enerji növlərini istehsal etmək mümkündür. Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 giqavat səviyyəsindədir. Yəni növbəti illərdə artıq bu proses Azərbaycanda geniş vüsət alacaq. Azərbaycan bölgənin çox etibarlı və böyük elektrik generasiya gücünə malik ölkəsi olacaq. Mən buna şübhə etmirəm”.

Dövlət başçısı gələcək planlarla bağlı da fikirlərini bildirib: “Nəzərə alsaq ki, bizdə bərpaolunan enerji potensialı çox artacaq, əlbəttə, biz bu enerjini saxlamaq üçün infrastruktur yaratmalıyıq. Bu məqsədlə ölkəmizdə tarixdə ilk dəfə olaraq Batareya Enerji Saxlanc Sistemi də yaradılır. Birinci layihə 250 meqavatlıqdır. Bunu “AzərEnerji” öz vəsaiti hesabına icra edir. Ancaq bizim artan potensialımız tələb edəcək ki, belə Batareya Enerji Saxlanc sistemlərinin sayı daha da çoxalsın və mən xarici investorları da bu işə dəvət edirəm.

Generasiya gücləri ilə bağlı isə təkcə bunu demək kifayətdir ki, imzalanmış kontraktlar əsasında 2030-cu ilə qədər 6, 2032-ci ilə qədər isə, ümumiyyətlə, 8 giqavat gücündə külək və Günəş elektrik stansiyaları inşa ediləcək. Əgər biz su elektrik stansiyalarının potensialını əlavə etsək, bizim potensialımız təbii ki, daha da böyüyəcək. Biz son 5 il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa etmişik. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur.

Azad edilmiş ərazilərin potensial su elektrik stansiyalarının xəritəsi də tərtib edilib və ancaq o bölgədə biz təqribən 500, bəlkə də 600 meqavat gücündə kiçik su elektrik stansiyalarını inşa edəcəyik. Demək olar ki, bunun yarısı artıq hazırdır və bütün ölkə, o cümlədən azad edilmiş ərazilər vahid şəbəkə ilə birləşdirilib və enerji axınının istənilən istiqamətə göndərilməsi, qəbul edilməsi də təmin olunubdur”.

Açılış məraisimdən çıxış edən Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini Nasser Əl-Qahtani bildirib: “Bərpaolunan enerji sahəsində bu aparıcı layihə Səudiyyə Ərəbistanı Krallığı ilə Azərbaycan Respublikası arasında tərəfdaşlığın gücünü və dərinliyini nümayiş etdirir. Mövcud çərçivə sazişlərində əlavə külək gücləri, o cümlədən elektrik enerji şəbəkəsinin çevikliyini və etibarlığını artırmaq üçün batareyalarda enerji saxlanılması sistemləri əsasında quruda və dənizdə həyata keçiriləcək layihələri nəzərdə tutan uzunmüddətli inkişaf yolu əks olunur.

Biz, həmçinin gələcək təşəbbüsləri, o cümlədən planlaşdırılan 200 meqavatlıq külək enerjisinin genişləndirilməsi layihəsində enerjinin batareyada tam yığılmasında və nəhayət, regional və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək Xəzərdə külək potensialının qiymətləndirilməsində əldə olunmuş irəliləyişi alqışlayırıq. Bu təşəbbüslər güclü tərəfdaşlıq və etibarlı texniki təməl əsasında Azərbaycanı regional təmiz enerji qovşağına çevirməkdə ümumi məqsədimizin təzahürüdür”.

Çin Xalq Respublikasının Azərbaycandakı səfiri xanım Lu Mey çıxışında maraqlı məqamlara toxunub və bildirib ki, bu, böyük nailiyyətdir və bərpaolunan enerji sektorunda Çin, Azərbaycan və Səudiyyə Ərəbistanının uğurlu əməkdaşlığının bariz nümunəsidir. “Yaşıl keçid və dayanıqlı inkişaf həm Çin, həm də Azərbaycan üçün prioritetdir. Hər iki tərəf məhz yaşıl və aşağıkarbonlu inkişaf, enerjinin inkişafı sahəsində Anlaşma Memorandumu imzalamışlar. Azərbaycan COP29 tədbirinə uğurla sədrlik etmişdir və o vaxtdan etibarən yaşıl enerji sahəsində inkişafa sadiq qalır. Bu, həmçinin aparıcı qlobal yaşıl enerjinin inkişafında Azərbaycanın çox mühüm rolunu göstərir”- səfir qeyd edib.

Xanım Lu həmçinin bildirib ki, Çin və Azərbaycan “Bir kəmər, bir yol” layihəsində də çox yüksək səviyyədə əməkdaşlıq edir. O cümlədən Çin-Avropa dəmir yolu bağlantısı və Trans-Xəzər dəhlizi istiqamətində işlər sürətlə davam edir və burada Azərbaycanın rolu güclənir.

Səfir qeyd edib ki, bu layihə, əslində, Azərbaycanda həyata keçirilən ilk və çox böyük külək elektrik enerjisi layihəsidir: “Bir halda ki, bu artıq istismara verilir, deməli, 300 minə yaxın ailə məhz bundan faydalanacaqdır. Bu, Azərbaycanın, həmçinin regionun səmərəli və davamlı inkişafına dəstək olacaqdır”.

”ACWA Power” şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan çıxış edərək deyib: “Hörmətli cənab Prezident. COP29-da Siz çox mühüm bir çıxış etdiniz. Müxtəlif tərəflər müəyyən strategiyalar haqqında danışırdılar, fikirlərini bölüşürdülər. Amma Siz söylədiniz ki, dünya ən yaxşı formada necə inkişaf etməlidir, hansı istiqamətdə getməlidir. Siz qeyd etdiniz ki, bu, məhz müxtəlif enerjilərin ümumi kombinasiyası sayəsində mümkündür Siz ölkənizdə həmin bu ekosistemi yaradırsınız. Cənab Prezident, bu yaşıl enerji layihəsi məhz Sizin planınız əsasında həyata keçirildi və gördüyünüz kimi, biz bunu yerlərdə işləyərək reallığa çevirdik. Əlbəttə ki, bu, həmçinin yaşıl enerjinin gələcək inkişafı ilə bağlı məsələdir”.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ”ACWA Power” şirkətinin təsisçisi və İcraçı direktoru Məhəmməd Əbunəyyan 240 MVt gücündə ”Xızı-Abşeron” Külək Elektrik Stansiyasını işə saldılar.

Qeyd edək ki, bu stansiyanın tikintisi üçün Abşeron rayonunda 14,2, Xızı rayonunda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın torpaq sahəsi bərpaolunan enerji mənbələrinin ərazisi müəyyən edilib. Layihə üzrə burada hər biri 6,5 MVt olan ümumilikdə 37, o cümlədən Abşeronda 12, Xızıda 25 turbin, həmçinin ölçü-müşahidə stansiyaları, quşların mühafizəsi sistemləri quraşdırılıb. Layihənin icrasına təxminən 340 milyon ABŞ dolları xarici investisiya yönəldilib. Stansiyanın illik enerji istehsalı həcmi təqribən 1 milyard kilovat-saat nəzərdə tutulur ki, bunun da nəticəsində 220 milyon kubmetr təbii qaza qənaət olunacaq və 400 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq. Layihənin baş podratçısı Çinin “Power China Group”un törəmə şirkəti olan “Power China Huadong Engineering Co., Ltd.”dir.

Ümumiyyətlə, son illərdə Azərbaycan yaşıl enerji sahəsində innovativ layihələr həyata keçirir və ölkəmizin enerji sektorunda alternative enerjinin payı sürətlə artır. Bu isə həm karbohidrogen resurslarının istifadəsini azaldır, həm ekologiyanın qorunmasını təmin edir, həm də daha ucuz, daha təhlükəsiz və daha davamlı enerji təchizatı sisteminin yaradılmasını təmin edir.

***Elçin Bayramlı***

# Naxçıvanın Zəngəzur dəhlizi üçün əhəmiyyəti böyükdür

***Böyük Zəfərimizdən ötən 5 il ərzində Naxçıvan məsələsi, yəni muxtar respublikanın blokadasının yarılması, dəmiryolunun bərpası, Zəngəzur dəhlizinin açılması ilə blokadası Qarabağın işğalı ilə yaşıd olan bu qədim diyara yeni həyatın gətirilməsi dövlətin reallaşmasını planlaşdırdığı ən mühüm məsələlərdən biri olub.***

Necə ki, İkinci Vətən müharibəsi, daha sonra antiterror əməliyyatı, Qarabağda həyata keçirilən bərpa işləri, Böyük Qayıdış Proqramı ardıcıl şəkildə həyata keçirildi, bütün bunların fonunda Naxçıvanın blokadasının ləğv edilməsi də dövlət siyasətinin başlıca amili olub və bu sahədə möhtəşəm işlər görülüb. Bu işlərin zirvəsi isə ötən il Amerikada Prezident Trampın iştirakı və şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanan Bəyannamə oldu. Bu Bəyannamə Zəngəzur dəhlizinin açılmasını sözsüz reallaşdırdı.

Dövlətimizin başçısının yanvarının 5-də yerli mediaya verdiyi müsahibədə hər birimizin diqqətlə izlədiyi məqam: Biz əslində bu dəhlizi müharibədən - İkinci Qarabağ müharibəsindən bir neçə ay sonra icra etməyə başlamışıq. Səhv etmirəmsə, 2021-ci ilin əvvəlində artıq o dəmir yolunun təməli də qoyuldu. Yəni sözün düzü, məndə şübhə yox idi ki, bu yol açılacaq. Əgər şübhə olsaydı, yəqin ki, biz bu qədər vəsait qoymazdıq. Hətta müsahibələrin birində də demişdim ki, istənilən yolla açılacaq. Bəzən belə ritorikaya da ehtiyac var, çünki bu, qarşı tərəfi, necə deyərlər, yumşaq mənada həvəsləndirir. Amma əlbəttə ki, bu məsələnin Amerikada Trampın iştirakı ilə həll olunması bu məsələni artıq tamamilə həll edilmiş məsələ kimi ortaya qoydu.

### Avtomobil yolu 95, dəmir yolu 70 faiz hazırdır

Bizim Prezident Qarabağın işğaldan azad edilməsinə fəaliyyətinin düz 17 ilini həsr etdi. Ən birinci ölkənin çökmüş iqtisadiyyatı dirçəldildi, milli ordunun vəziyyəti yaxşılaşdırıldı. Daha sonra dünya dövlətlərinə üz tutub məsələnin sülh yolu ilə həllinə çalışdı. Ən mötəbər kürsülərdən Qarabağla bağlı çağırışlar etdi. Dünyanın həqiqətlərə korluğu və karlığı təsdiq olunandan sonra isə hər dəfə deyilən vəd öz yerini tutdu-hərbi yolla torpaqlarımızın azad edilməsi məsələsi. Və belə də oldu. 2020-ci ilin 44 günlük Vətən müharibəsi böyük Zəfərlə nəticələndi. İtkilərimizin, qazilərimizin sayı minlərlə olsa da, lakin torpaq itkilərin hesabına Vətənə məxsus ola bilir, bu, hər birimizin əvvəldən də gözə aldığımız məsələ idi.

Prezidentimiz torpaqlar işğaldan azad edildikcə, bərpa-quruculuq işlərinin başlanması tapşırığını da verirdi. Elə buna görədir ki, atrıq minlərlə sakin doğma yurd yerinə qayıdıb, ata-bbaba ocağının işığını yandırıb. Eləcə də Zəngəzur dəhlizi ilə bağlı. Hələ müharibənin son günü Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli Bəyannamədən, hansı ki, bu Bəyannamənin 9-cu bəndi Naxçıvana yolların açılması ilə bağlı idi, dərhal sonra Prezident dəmiryolunun bərpası ilə əlaqədar tapşırıqlar verdi və burada işlər başlandı. Nəticə...

Prezident İlham Əliyev: Bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu demək olar ki, tezliklə hazır olacaq. Avtomobil yolunun hazırlığı təxminən 95 faizdir. Dəmir yolunun fiziki hazırlığı 70 faizdir. Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində, - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir, - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq.

### Həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu

Zəngəzur dəhlizinin əhəmiyyəti böyükdür, bunu hər kəs bilir. Lakin bu dəhlizin sırf Naxçıvanla bağlı olması onun əhəmiyyətini daha da artırır. Çünki Naxçıvan elə bir coğrafiyada yerləşir ki, bu kiçik ərazi dünyanın bir çox ölkələrini bir-biri ilə əlaqələndirir.

Prezident: Beləliklə, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq və bayaq qeyd etdiyim kimi, həm Şərq-Qərb, həm də bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır. Çünki Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb.

### Naxçıvana iki yol gedəcək

Dövlətimizin başçısı Zəngəzur dəhlizi ilə bağlı o qədər müfəssəl məlumat verdi ki, burada bəlkə də hər kəsin bilmədiyi məsələlər hamıya gün kimi aydın oldu. Beləliklə, də həyata keçirilir.

Naxçıvan Zəngəzur dəhlizinin mühüm hissəsi olduğu, gələcəkdə tranzit rolunu oynayacağı üçünsə, hərtərəfli inkişafı daha çox haqq edir. Bu barədə Prezident İlham Əliyevin fikirləri də hər birimiz üçün maraqlı oldu: Naxçıvanın Baş Planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər yaşıl enerji olsun, istər kənd təsərrüfatı, istər suvarma, - indi orada böyük suvarma layihələri icra ediləcək, - istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik. Ermənistan da təbii olaraq bundan ancaq fayda görəcək. Çünki Ermənistan indiki




ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi – bu, Şimal-Cənub marşrutunun ikinci yolu olacaq. Bu, eyni zamanda, Orta Dəhlizin də ikinci yolu olacaq və təbii ki, yükaşırma qabiliyyəti artacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Qeyd etdiyim kimi, bunun əsas, necə deyərlər, istiqamətverici tərəfi də biz olacağıq. Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur.

Bildiyiniz kimi, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfi qərar qəbul etmişdir. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam

Naxçıvana gələcəkdə iki yol gedəcək. Bu barədə cənab Prezident: Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə Ağbənd qəsəbəsində Arazın üzərindən körpü də inşa edilir. Yəni bizim o bölgədən Qərb istiqamətinə və Cənub istiqamətinə əslində iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi - Ermənistan üzərindən, biri isə Araz dəhlizi - İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik. Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik.

### Naxçıvan hər bir qonşu dövlət üçün faydalıdır

Təbii ki, Naxçıvanın inkişafına çox ehtiyac var. Çünki o, Zəngəzur dəhlizinin mühüm əhəmiyyətidir. Ona görə də bölgənin hərtərəfli inkişafı vacibdir. Yəni, Naxçıvan illərdir ki, dövlətimizin başçısının diqqət mərkəzindədir. Naxçıvanın inkişafı ilə bağlı imzalanan sənədlər, qəbul edilən Dövlət Proqramları bunu deməyə əsas verir. Ümumilikdə Naxçıvan Ümummilli Lider Heydər Əliyevin arzularının diyarıdır. Ulu Öndərin Naxçıvanla bağlı görmək istədiyi çox məqamlar var idi ki, bunlar ardıcıl şəkildə

dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər.

Bəli, Zənzəur dəhlizinin açılması region dövlətlər və bir çox dünya dövlətləri üçün iqtisadi güc, yeni həyat deməkdir. Odur ki, xarici investorlar da bu sahəyə sərmayə qoymağa maraqlı olsunlar. Çünki söhbət dünya əhəmiyyətli bir dəhlizdən gedir. Və düşünəndə ki, Naxçıvan kiçik bir ərazidir, lakin Zəngəzur dəhlizində böyük əhəmiyyətə malikdir, bu dəfə xarici investorlar da, yerli sahibkarlar da iki dəfə fikirləşməlidirlər: bu gün yatırılan, qoyulan sərmayə sabah ikiqat qazanc deməkdir.

***Mətanət Məmmədova***

*P.S. Və Naxçıvanın yaxın gələcəyini düşündükcə, ürəyimə böyük bir qürur hissi dolur. Çünki onun 35 ildən çox olan blokadasının canlı şahidi və araşdırmaçısıyam.*

# Kadr məsələsi yenidən gündəmdə

***Azərbaycanda qazanılan iqtisadi, sosial, hərbi, siyasi və digər uğurların təməlində düzgün və əsaslı siyasətin aparılması dayanır. Azərbaycan xalqı aparılan möhtəşəm siyasətin müsbət nəticələrini, uğurlu addımların xeyrini sosial-iqtisadi durumlarının yaxşılaşmasında, Qarabağın erməni terrorçu dəstələrindən təmizlənməsindən sonra qürurlu vətəndaşa çevrilməsində və digər məsələlərdə açıq şəkildə hiss edir.***

Təbii ki, uğurların bundan sonra daha da genişlənməsi üçün siyasi iradə və istək mövcuddur. Müzəffər Ali Baş Komandan, Fateh Sərkərdə, Prezident İlham Əliyev xalqa arxalanaraq geniş və əhatəli islahatların aparılmasında qətiyyətlidir. Fateh Sərkərdə, Prezident İlham Əliyev cəmiyyətdə üzə çıxa biləcək istənilən problemin, çatışmazlıqların aradan qaldırılması istiqamətində gərəkli addımlar atır, məmur özbaşnalıqlarına qarşı sərt tədbirlər görür.

## İctimai nəzarət QHT-lər, media və ya digər qruplar vasitəsi ilə həyata keçirilməlidir

Dəfələrlə Prezident İlham Əliyev çıxışlarında cəmiyyətdə ictimai nəzarətin gücləndirilməsinin vacibliyini qeyd edib. QHT-lər, media və ya digər qruplar vasitəsi ilə həyata keçirilməli olan ictimai nəzarət cəmiyyətin daha sağlam olmasına, məmur məsuliyyətinin artırılmasına geniş imkanlar yaradır. Eyni zamanda ictimai nəzarətlə ölkə daxilində neqativ halların aradan qaldırılmasına, rüşvətin, korrupsiyanın, məmur özbaşınalığın sıradan çıxarılmasına nail olmaq mümkündür. Düzdür, elə məmurlar, vəzifə mənsubları var ki, müxtəlif yollarla əldə etdikləri böyük pullara, var dövlətə, oturduqları kresloların gücünə o dərəcə arxalanırlar ki, ictimai nəzarəti mənasız hesab edir, bəzi hallarda onların çağırışlarına əhəmiyyətsiz yanaşırlar. Lakin belə hallar uzun çəkmir. Problemin aktuallaşması, məmur özbaşınalığının ictimailəşdirilməsi həmin vəzifə mənsubunun çöküşünə, hətta azadlıqdan məhrum edilməsinə gətirib çıxarır. Elə bu yaxınlarda Nəsimi rayonuna təyin olunmuş İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov sahibkarlardan böyük pullar tələb etməsi, vətəndaşlara qarşı saygısız yanaşmasının nəticəsi olaraq vəzifəsindən kənarlaşdırıldı. Yəni həmin icra hakimiyyətinin başçısının özbaşınalığı cəmi 47 gün çəkdi. Ona görə də, hər bir vətəndaş, xüsusilə də QHT-lər, KİV-lər cəmiyyətdə baş verən neqativ hallara qarşı diqqətli olmalı, insanları narahat edən məsələləri ictimailəşdirməklə həmin problemin həllinə yardımçı olmalıdır. Bəli, müxtəlif nazirliklər də ictimai şuralar yaradılır. Ancaq həmin şuraların fəaliyyəti effektli deyil. Səbəbi də ictimai şuraların nazirliklərdən müəyyən məsələlərə görə asılı olmasıdır. Ona görə də, yeni formada ictimai şuraların yaradılmasına zərurət var.Təəssüflər olsun yüksək etimad göstərilərək ali dövlət vəzifələrinə təyin olunan bəzi kadrlar da etimadı doğrulda bilmirlər. Bu ya onları bacarıqsızlığından, ya da daha çox dünya malına tamah salmalarından irəli gəlir. Məhz ikinci variant səbəbindən bu günə qədər 14 rayon icra hakimiyyətlərinin başçıları həbs olunublar. Eyni zamanda onlarla rayonun təhsil, səhiyyə, məşğulluq mərkəzlərinin rəhbərləri hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq məhkəmə qarşısına çıxarılıblar.

## "Etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində kadr məsələsinə xüsusi diqqət ayırdı. Prezidentimiz İlham Əliyev ilk növbədə bildirdi ki, Qarabağ və Şərqi Zəngəzurda artıq yeni üsuli-idarə nəzərdə tutulub və tətbiq edilir: "Hesab edirəm ki, bu, özlüyündə daha çevik idarəetmə üçün daha əlverişlidir. Amma yenə də əsas məsələ, kadr məsələsidir. Məsələn, mən Naxçıvanda da xüsusi nümayəndə institutu yaratmışam. Ancaq əfsuslar olsun ki, oraya təyin etdiyim kadr etimadımı doğrultmayıb və buna görə vəzifəsindən çıxarılmışdır. Bu yaxınlarda Bakının rayonlarının birinə icra başçısı təyin edilmişdir. Özü də noyabr ayındakı o təyinatda qrup şəklində bir neçə icra başçısı təyin edilirdi. İnsanlara diqqət, iş adamlarına dəyməmək, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, sosial ədalət barədə mənim verdiyim tapşırıqlar, sözlər mətbuatda gedib. Amma təyin etdiyim adamlardan birini mən bir aydan sonra vəzifəsindən çıxartmışam. Yəni bu, məni çox məyus edir. Çünki bilirsiniz, mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Yəni burada gənc nəsil, yaşlı nəsil söhbəti getmir. İnsanların keyfiyyətindən söhbət gedir, ailədə, məktəbdə, cəmiyyətdə aldığı tərbiyədən söhbət gedir. Ona görə etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - belə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır.



Yenə də qayıdıram ictimai nəzarətə, çünki mənim qərarlarımın bir çoxu məhz ictimai nəzarət nəticəsində verilibdir. Bunu indi ictimaiyyət bilmir, amma yerlərdən gələn siqnallar yoxlanılır və qeyd etdiyim bu uğursuz təyinatlarla bağlı siqnallar yerlərdən gəlir. Əgər yerlərdən siqnal gəlməsə, onda mən haradan biləcəyəm? Onlar bir neçə dəfə yoxlanılır və bir neçə qurum tərəfindən, bir qurum yox, bir neçə qurum ki, burada şəxsi qərəz olmasın. Ondan sonra bu, öz təsdiqini tapanda artıq qərar qəbul edilir və bütün məmurlar onu bilməlidirlər. Vəzifəyə təyin etmək böyük etimaddır. Ancaq bu etimad əgər məmur tərəfindən doğrulmasa, onda sərəncam da özünü çox gözlətməyəcək".

## Məsuliyyət və nəzarət əsas məsələdir

Azərbaycan Prezidenti İlham Əliyev yenə də əsas məsələnin kadr məsələsi olduğunu qeyd etdi: "Məsələn, mən Naxçıvanda da xüsusi nümayəndə institutu yaratmışam. Ancaq əfsuslar olsun ki, oraya təyin etdiyim kadr etimadımı doğrultmayıb və buna görə vəzifəsindən çıxarılıb".

Prezidenti İlham Əliyev Nəsimi rayon icra hakimiyyətinin başçısı Elxan İbrahimovun qısa müddət sonra vəzifəsindən azad olunmasına da toxunub: "Bu yaxınlarda Bakının rayonlarının birinə icra başçısı təyin edilmişdir. Özü də noyabr ayındakı o təyinatda qrup şəklində bir neçə icra başçısı təyin edilirdi. İnsanlara diqqət, iş adamlarına dəyməmək, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, sosial ədalət barədə mənim verdiyim tapşırıqlar, sözlər mətbuatda gedib. Amma təyin etdiyim adamlardan birini mən bir aydan sonra vəzifəsindən çıxartmışam. Yəni bu, məni çox məyus edir. Çünki bilirsiniz, mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Yəni burada gənc nəsil, yaşlı nəsil söhbəti getmir. İnsanların keyfiyyətindən söhbət gedir, ailədə, məktəbdə, cəmiyyətdə aldığı tərbiyədən söhbət gedir. Ona görə etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - belə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır. Nə deyə bilərəm, mən davam edəcəyəm, bu proses hamar deyil. Struktur islahatlarının aparılması təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri".

Göründüyü kimi, Prezidentimiz İlham Əliyev bütövlükdə xalqın maraq və mənafeyni, istək və arzularını həyata keçirmək üçün böyük zəhmət, əmək sərf edir. Yetər ki, təyin olunan kadrlar məsuliyyətlərini dərk edib, göstərilən etimadı yerinə yetirsinlər. Bu məsələdə ictimai nəzarətin həyata keçirilməsi hər bir vəzifə mənsubunun məsuliyyətinin artırılmasına, daha real nəticələr əldə edilməsinə gətirib çıxara bilər".

**İLHAM ƏLİYEV**

# Təkrar emal sənayesi: daha çox iş, daha çox gəlir

***Təkrar emal ətraf mühitimizin sağlamlığı baxımından bir çox fayda ehtiva edir. Materiallarımızı təkrar emal etməklə özümüz və gələcək nəsillər üçün daha sağlam bir planet yaradırıq. Təkrar emal yeni məhsullar üçün ağac, su və mineral kimi resursların sərfiyyatına ehtiyacı azaldır.***

ABŞ Ətraf Mühit Agentliyinin ən son məlumatlarına görə, bərk tullantıların təkrar emalı ildə təxminən 190 milyon metrik tondan çox karbon qazı ekvivalentinə bərabərdir. Təkrar emal xüsusilə enerjiyə qənaət edir. Məsələn, cəmi 10 plastik şüşənin təkrar emalı noutbuku 25 saatdan çox işlətmək üçün kifayət qədər enerjiyə qənaət edir. Təkrar emal tullantıları poliqonlardan və yandırıcılardan uzaqlaşdırır ki, bu da ekoloji çirklənmənin və tullantıların zərərli təsirlərini azaldır. Təkrar emal prosesi dəfələrlə təkrarlanan üç mərhələdən ibarətdir: 1. Toplama və emal, 2. İstehsal, 3. Yeni məhsulların alınması. Toplandıqdan sonra təkrar emal edilə bilən materiallar çeşidlənmək, təmizləmək və istehsalda istifadə edilə bilən materiallara çevrilmək üçün bərpa müəssisəsinə göndərilir. Təkrar emal olunan materiallar xammal kimi alınır və satılır. Emaldan sonra təkrar emal edilə bilən materiallar təkrar emal zavodunda və ya oxşar müəssisədə yeni məhsullara çevrilir. Bugünkü məhsulların bir çoxu təkrar emal olunmuş tərkiblə istehsal olunur. Unutmayın ki, təkrar emal olunmuş materiallardan hazırlanmış yeni məhsullar almaqla təkrar emal dövrəsini bağlamağa kömək edirsiniz.




Təkrar emal olunmuş materiallar üçün daxili bazarlar gücləndirilməli, əhali bu məhsulların istehsalının təbiətə, təbii resurslara və dolayısı ilə insan sağlamlığına xidmət etdiyinin fərqində olmalıdır. Mövcud material bazarlarının inkişafını gücləndirmək və yeni innovativ bazarlar yaratmaq üçün təkrar emal sisteminin müxtəlif sektorları arasında ünsiyyətin yaxşılaşdırılması lazımdır.

**Lalə Mehralı**

# ”"Səs” qəzeti 35 illik şərəfli tarixi yolda!




***Milli mətbuatın 150 illik tarixində özünəməxsus yeri olan "Səs" qəzeti çətin, mübarizələrlə dolu şərəfli yol keçib. Müstəqil Azərbaycanın demokratik inkişaf yolunda müstəsna xidmətləri olan, yarandığı zamandan xalqın səsini səsində birləşdirərək, dünyaya Azərbaycanın səsini çatdıran "Səs" qəzeti artıq 35 yaşını qeyd edir. Çap olunmağa başladığı ilk gündən elə ölkənin həyatında tanınan, Azərbaycan həqiqətlərinin xalqa çatdırılmasında obyektivliyi ilə seçilən "Səs" bir mətbu orqan kimi hər zaman oxucu diqqətində olub.***

## Milli mətbuatımızın 150 illiyinin 35 ili



Bu mətbu orqan ədalətə, haqqa səslədi milyonlarla insanları. Təlatümlü zamanda xalqın səsini ucaltdı. Müstəqilliyə gedən yolda, ”Qoy ədalət zəfər çalsın” prinsipini əsas götürərək qısa zaman məsafəsində Azərbaycanda bu qələbənin təntənəsini səhifələrində dərc etdirdi. Öz çoxminli oxucularının ümidlərini doğrultdu. Bu gün ”Səs” qəzeti mətbuatımızın, azad sözün inkişafına öz mühüm töhfəsini verməkdədir. Məqalələri, analitik və təhlil yazıları ilə insanların məlumatlandırılması, maarifləndirilməsi kimi mühüm missiyanı uğurla həyata keçirir. Təsis edildiyi gündən bu günədək ”Səs” qəzetinə ən yüksək qiyməti də elə, məhz ”Səs qəzeti mənim üçün ən əziz qəzetdir”, - deyən Ümummilli Liderimiz Heydər Əliyev verib.

### HƏQİQƏTLƏRİN CARÇISI

İlk nömrəsindən bu günə qədər tutduğu yolu davam etdirərək, amalının müdafiəçisi tək zamanın səsini bəyan edib. Azərbaycanın 35 illik tarixi səhifələrinə həkk olunub. ”Səs” ictimai-siyasi qəzeti yaşadığı zamanın hesabatında qürurla, dəyanətlə dayanıb çağdaş dünyamıza həqiqətləri çatdırıb. 35 ildə saxta tarixdən deyil, zamanın həqiqətlərindən, burulğanlı, təlatümlü, mübarizəli, mücadilə ilə dolu bir dövründən - müstəqilliyimizdən söz açıb. Zamanımız üçün fəxarətlə səhifələdiyimiz səhifələrdə milli düşüncə, milli qeyrət, heysiyyət, qəhrəmanlıq, azadlıq kimi məfhumlarla qarşılaşırıq. Milli mətbuatımızda çəkisi, yeri olan ”Səs” qəzetinin çağdaş dünyamızın aynası və tərəzisidir.

Tarixə səyahət edərək bildirək ki, ”Səs” qəzetinin yaranması 1990-cı illərin hadisələri ilə - Azərbaycanda milli-azadlıq hərəkatının başlaması ilə bağlıdır. Həmin illərdə Azərbaycanda yaşanılan ictimai-siyasi böhran, Ermənistanın ölkəmizə qarşı işğalçılıq və soyqırımı siyasəti, olduqca ağır sosial-iqtisadi durum, insanların üzləşdikləri çətinlikləri qəzet səhifələrində işıqlandırıldı. Gerçəklik qəzetin səhifələrinə yol açdı. Real mənzərəni geniş ictimaiyyətə çatdıran yeganə mətbu orqan ”Səs” qəzeti idi. ”Səs” qəzeti o zaman Azərbaycanda daha çox oxunan, əldən-ələ gəzən mətbu orqana çevrilmişdir. ”Səs” üçün yaşanılan illər hamar olmayıb. Elə ilk addımından təzyiqlə üz-üzə qalıb, sonralar qəzetə dəfələrlə hücumlar edilib. Lakin bu hərəkətlər vətəni sevən, həqiqətən, Vətən keşiyində duran qəzetin fədakar kollektivini haqq-ədalət yolundan, milli mücadilədən çəkindirməyib. AXC-Müsvat hakimiyyəti illərində bu qəzetə qarşı davamlı basqılar, hücumlar baş qaldırılır, orada çalışan qəzet heyətinə təhdidlər yağdırılırdı. Hətta bir neçə dəfə qəzetin redaksiyasına silahlı hücumlar da təşkil olunmuş, jurnalistlərə xəsarətlər yetirilmişdi. Ancaq bütün bunlara baxmayaraq, nəşr öz fəaliyyətini qətiyyətlə davam etdirir, heç bir təhdiddən, hücumlardan çəkinmədiyini sübuta yetirirdi.Qeyd etmək yerinə düşərdi ki, o dövrdə ölkə regionları arasında Naxçıvan daha çətin durumda idi. Bu bölgənin problemlərini, insanların üzləşdikləri çətinlikləri real şəkildə geniş ictimaiyyətə çatdıran yeganə mətbu orqanı isə ”SƏS” qəzeti idi. Bu baxımdan, ”SƏS” qəzeti o zaman Azərbaycanda daha çox oxunan, bir nömrəli qəzet sayılırdı. Bütün insanlar, xüsusilə də, ölkədə gedən ictimai-siyasi, proseslərdən real, düzgün məlumat əldə etmək istəyənlər, məhz ”SƏS” qəzetini oxuyurdular.

### MÜBARİZLİYƏ VERİLƏN BÖYÜK QİYMƏT

Ümummilli Liderimiz Heydər Əliyevin çıxışlarını, ideyalarını təbliğ etməkdə vuruş meydanına çevrilən qəzet geri çəkilmədi. Bu prinsipiallıq olmasa idi, 1992-ci ilin oktyabrında ölkə ziyalılarının xalqın iradəsini ifadə edən Ümummilli Lider Heydər Əliyevə ünvanlanan müraciəti ”Səs” qəzetində dərc olunmazdı. Ulu Öndərimiz, əslində, xalqın çağırışı olan bu müraciətə biganə qalmadı və bu cavab da ”Səs” qəzetində yer aldı. Ümummilli Liderin hakimiyyətə gəldikdən sonra ”Səs” qəzetini özü üçün doğma qəzet adlandırması da, məhz bu mübarizliyə verilən qiyməti idi.

1991-ci ilin 11 yanvar tarixində ilk sayı işıq görən qəzet elə həmin zamandan bu günə qədər əqidə və prinsipini rəhbər tutaraq, dövlətimizin qarşısında duran çətin sınaqları dəf etmək üçün silahlanıb. Azərbaycanın müstəqilliyinin yaşıdı olan qəzet bu çətin dövrdə azadlıq istiqlalçısı kimi tarixi zamanla bərabər addımladı, şərəfli bir yola körpü saldı və fəaliyyəti dövründə xalqın sevimli mətbuat orqanına çevrildi. Azərbaycan dövlətçiliyinin, Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılması, təbliği, Azərbaycana xidmət idi xalqda bu sevgini oyadan.

### Şərəfli missiyanın daşıyıcısı

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonrakı dövrdə isə Azərbaycan mətbuatının inkişafında tamamilə yeni mərhələ başlandı. Azərbaycanda söz və mətbuat azadlığının, müstəqil mətbuatın əsasını qoymuş lider kimi böyük ehtiramla anılır. Həmin dövrdən respublikada mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması ”Səs”in vətəndaş cəmiyyəti quruculuğunda rolunu daha da fəallaşdırdı. ”Səs” mövcud proseslərdən kənarda qalmadı.

”Səs” qəzetinin keçdiyi tarixi yolu, onun fəaliyyətini bütün hallarda Yeni Azərbaycan Partiyasının fəaliyyətindən ayrı təsəvvür etmək mümkün deyil. Partiya yarandıqdan sonra onun əsas mətbu ruporu kimi fəaliyyətini davam etdirib. Partiyanın bəyanatlarını, yığıncaqlarını və sair tədbirlərini öz səhifələrində geniş işıqlandırıb. YAP-ın yarandığı ilk illərdə ”Səs” qəzeti onun fəal təbliğatı ilə məşğul olub, məram və məqsədlərini ardıcıl, məqsədyönlü, məzmunlu və uğurlu şəkildə təbliğ edib. ”Səs” qəzeti bu gün də bu şərəfli missiyanın daşıyıcısıdır.

”Səs”in yolu Azərbaycan mətbuatı üçün nümunəvi məktəbdir. Bu gün təvazökarlıqdan uzaq olsa da, bildirək ki, ”Səs” qəzetinin milli mətbuatımızda özünəməxsus yeri var. ”Səs” bu gün Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri İlham Əliyevin siyasi xəttini, fəaliyyətini çox fəal, qətiyyətli şəkildə işıqlandırır. Qəzet ölkədə və dünyada baş verən hadisələri, insanların fikirlərini, əldə olunan uğurları və problemləri səhifələrində dərc edir. Obyektiv, peşəkar qələm cəmiyyətin maraqlarına, vətəndaş cəmiyyətinin inkişafına xidmət edir. Bu da öz ədalətli mövqeyində dönməz olan ”Səs”in ictimai-siyasi qəzet kimi nüfuzunu, populyarlığını daha da artırır və qəzetin oxucu auditoriyasını bir qədər də genişləndirir.

### İLHAM ƏLİYEV: ”1991-Cİ İLİN YANVARINDA İŞIQ ÜZÜ GÖRMÜŞ ”SƏS” QƏZETİ QISA ZAMANDA ƏSL MÜSTƏQİL VƏ DEMOKRATİK MƏTBUAT NÜMUNƏSİNƏ ÇEVRİLMİŞDİR”

Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin Azərbaycanın inkişafı və çiçəklənməsi, xalqın rifahının yüksəlməsi yolunda gördüyü möhtəşəm işlərin işıqlandırılması və əhaliyə çatdırılmasında ”Səs” qəzeti öz yolunu davam etdirir. ”Səs” qəzeti bu gün də dövlətə, YAP-ın siyasi kursuna, daşıdığı dəyərlərə sadiqdir və daim bu amal uğrunda çalışır. Zamanla ayaqlaşan qəzet dövrün tələblərinə cavab verir, yenilənir, müasir texnologiyalara sahibdir.

”SƏS”in 20 illik yubileyində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təbrik məktubunda bildirmişdir: ”Azərbaycanın ilk müstəqil mətbuat orqanlarından olan ”SƏS” qəzetinin kollektivini fəaliyyətə başlamağı 20 illik yubileyi münasibətilə təbrik edirəm. İlk nömrəsi gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi mürəkkəb dövrdə, 1991-ci ilin yanvarında işıq üzü görmüş ”SƏS” qəzeti qısa zamanda əsl müstəqil və demokratik mətbuat nümunəsinə çevrilmişdir. Cəmiyyətdə siyasi plüralizmə böyük ehtiyac duyulduğu həmin illərdə, qəzet müxtəlif ictimai-siyasi dairələrin, sağlam düşüncəli vətənpərvər ziyalıların tribunasına çevrilmiş, vətəndaşları narahat edən məsələləri, dövrün aktual problemlərini cəsarətlə ictimai müzakirəyə çıxarmış, müxtəlif yönlü təqib və təzyiqlərə baxmayaraq öz mübariz mövqeyindən geri çəkilməmişdir”.

Bəli, ”Səs” qəzeti müstəqil mətbuat tariximizdə özünəməxsus yeri, dəst-xətti, eləcə də, şərəfli tarixçəsi olan mətbuat orqanıdır. Azərbaycan cəmiyyətinə, dövlətçiliyinə sədaqət amalıdır ki, şərəfli yolunda neçə-neçə onillikləri yaşayacaq.

”Səs” qəzetinin 35 illik yubileyi münasibəti ilə əməyi olan kollektivin hər bir üzvünü təbrik edir və onlara dövlətçilik və milli maraqlar uğrunda yaradıcılıq uğurları arzulayırıq. Qoy həmişə qələmimiz iti, sözümüz kəsərli olsun.

***Zümrüd BAYRAMOVA***

# “Dünyada gücün hüququ var, hüququn gücü yoxdur!”



*Mətləb Salahov: “Donald Trampın Maduranı yatağından qaçırdıb Venesuela neftini qamarlaması dünyanı dəhşətli xaosa sürükləyir”*

“Venesuela prezidenti Nikolas Maduranın ABŞ xüsusi təyinatlıları tərəfindən qaçırılması və Nyu-York küçələrində alçaldığıcı şəkildə nümayiş etdirilməsi birbaşa dünya üçün ən təhlükəli presedentlərə yol açır. Təsəvvür edin ki, iyirminci əsrin ortalarına yaxınlaşırıq, amma özünü demokratiya beşiyi adlandıran supergüc, başqa ölkənin prezidentini gecə ikən oğurlayıb aparır.

Bu hərəkətin sadəcə izahı belə yoxdur. Bu o deməkdir ki, dünyadakı digər supergüclər, məsələn Rusiya rəhbəri Vladimir Putin də sabah başqa bir ölkənin liderini bu şəkildə oğurlasa və ya o ölkəni işğal edərsə, başda ABŞ olmaqla heç bir Qərb dövlətinin Moskvaya söz edeyəcək üzü qalmayıb. Donald Tramp bu hərəkətləri ilə dünya siyasətinin yırtıcı və əsl üzünü xalı kimi rotaya sərir”.

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. M.Salahov qeyd edib ki, Ağ Ev rəhbəri N.Maduranı narkoticarətdə ittiham etsə də, artıq neçə gündür keyfiyyətli Venesuela neftini dünya bazarına çıxarıb qazanc əldə edir.

Bu faktın özü ABŞ-ın əsl məqsədinin bu ölkənin təbii sərvətlərinə göz dikməsi ilə bağlı olduğunu göstərir. “Bu, açıq şəkildə yırtıcı biznes maraqlarıdır. Volodimir Zelenskiyə olmazın təzyiqlərini göstərib Ukraynanın təbii sərvətlərini qamarlayan D.Tramp, indi də N.Maduranı yatdığı yerdən qaçırdıb bu ölkənin bütün neft sərvətlərini ələ keçirdi. Bu hadisə dünyanı ciddi xaos və müharibə fəlakətinə sürükləyir”.

***Afət Tahirqızı***

# Güneydə etirazlar nəticə verməyə başlayır

***Tarixi faktlar təsdiq edir ki, zorakı üsullarla, qəddar əməllərlə xalqı məqsədindən və qarşısına qoyduğu hədəflərindən yayındıra bilməz. Dəfələrlə dünya siyasi səhnəsində, ayrı-ayrı ölkələrin həyatında hakimiyyətlər hər cür qatı idarəetmə üsulundan, zorakı vasitələrdən istifadə etməklə azadlığı uğrunda mübarizəyə qalxan xalqları yolundan çəkindirə bilməyib, nəhayət də məğlubiyyətə uğrayıblar.***



*ABŞ-nin İnsan Hüquqları Müdafiəçiləri (HRAI) təşkilatı fars-molla rejiminin ərazilərində keçirilən etiraz aksiyaları ilə bağlı yeni məlumat yaydı*

Bu baxımdan tam əminliklə demək olar ki, bir neçə gündür ki, fars-molla rejiminin ərazilərində davam edən etiraz aksiyaları uğurla başa çatacaq. Xüsusilə də, 50 milyondan çox azərbaycanlının yaşadığı Güney Azərbaycanda dəfələrlə milli oyanışlar baş verib və qısa müddətli də olsa məqsədlərə nail olunub. Dünya azərbaycanlılarının mənəvi mərkəzi olan Təbrizdə Səttar xanın və onun yaxın silahdaşı Bağır xanın fədakarlıqları nəticəsində 1905-1911-ci illərdə Cənubi Azərbaycanda milli hökumətin qurulması buna misal ola bilər. Fars rejimi milli hökuməti devirmək üçün cəhdlər göstərsə də, istəyinə nail ola bilməmişdi. 1909-cu ilin aprel ayında fars rejiminin silahlı dəstələri ilə Səttar xanın rəhbərlik etdiyi Güney Azərbaycan ordusu arasında qanlı döyüşlər baş verdi. Döyüşlər güneyli oğulların qələbəsi ilə başa çatdı, şahın ordusu Təbrizdən çıxarıldı. Bu döyüşdə göstərdikləri fərdi qəhrəmanlıqlara görə Səttar xan və Bağır xan Azərbaycanın əyalət əncüməni tərəfindən müvafiq olaraq "Sərdari-milli" (Xalq sərkərdəsi) və "Salari-milli" (Xalq rəhbəri) fəxri adlarına layiq görülürlər. 1908-ci ilin dekabr ayında açılan İkinci Şura Məclisi Səttar xanla Bağır xanın xidmətlərini dəyərləndirmək məqsədilə onların adlarının metal lövhə üzərinə qızıl hərflərlə həkk edilmiş Şərəf Nişanlarının hazırlanması və Məclisin yenidən açılışı zamanı tribunadan asılması haqqında fərman verir. Bundan sonra Təbrizdə Hərbi Şuraya yaradılır. Tehranda, Ərdəbildə, Məşhəddə və digər ərazilərdə "Səttar xan" adı altında inqilabi komitələr yaranır. Təbriz əyalət əncüməni özünü Şura Məclisinin elçisi kimi təqdim edir. 1908-ci ilin oktyabr ayına qədər Güney Azərbaycanın bir çox vilayətləri fars ordularından təmizlənir.

### Təbriz, Ərdəbil, Tehran ayaqdadır

O zaman Güneydə qazanılan parlaq qələbə Çar Rusiyasını və İngiltərəni təşvişə salır. Onlar Səttar xanı və silahdaşlarını gözdən salmaq üçün Səttar xan və Bağır xanı silahdaşlarından,Təbrizdən ayırmağa çalışırlar. İngiltərənin xarici işlər naziri Edvard Karinin 16 mart 1910-cu il də indiki fars-molla rejiminin ərazilərində olmuş səfiri Corc Birliyə göndərdiyi teleqramda deyilirdi ki, Səttar xan və Bağır xan tezliklə Təbrizdən çıxarılmalıdır. Bundan sonra Səttar xanı və Bağır xanı müxtəlif vədlərlə Tehrana dəvət edirlər. 1910-cu il mart ayının 6-da Səttar xan və Bağır xan 300 nəfər silahdaşı iləTehrana yola düşür. 1910-cu ilin aprel ayının 3-də Səttar xan Tehrana çatır. Qurbanlar kəsilir, Tehran əhalisi onu xilaskar kimi qarşılayır, ən gözəl məkanda yerləşdirilir. 1910-cu ilin 7 avqustunda şah qoşunları və milliyətcə erməni olan daşnak Yefrem Davidyansın başçılıq etdiyi Tehranın polis qüvvələri gecə xaincəsinə Səttar xanının çadırına hücum edirlər. Baş verən silahlı qarşıdurmada Səttar xan ayağından yaralanır. Bu yara onun ölümünə səbəb olur. 1914-cü ilin noyabr ayının 9-da aldığı güllə yarasından Səttar xan 48 yaşında vəfat edir. Bununla da Səttar xan hərəkatı tamamilə sona çatır. Ancaq onun kimi fədailərin nurundan güc alan minlərlə soydaşımız sonrakı illərdə milli azadlıq mübarizələrini davam etdirdilər. Belə bir mübarizə 12 dekabr 1945-ci ildə Seyid Cəfər Pişəverinin başçılığı ilə Azərbaycan Milli Hökümətinin qurulması ilə nəticələndi. Təəssüf ki, sovetlərin dəstəyi ilə fars rejiminin qəddar hücumları , zorakı əməlləri ilə Milli Hökümət 1946-cı ildə süquta uğradıldı. Ancaq görünən ondan ibarətdir ki. Səttar xanın, Seyid Cəfər Pişəverinin və digər qəhrəman ulularımızın nəsildən nəslə miras olaraq ötürülən azadlıq uğrunda mübarizə aparmaq ənənəsi bu gün də davam etdirilir. Hazırda fars-molla rejimininnəzarət etdiyi ərazilərdə böyük etiraz aksiyaları keçirilir. Rejim etiraz aksiyalarını yatırmaq üçün hər cür zorakı vasitələrdən istifadə edir. Hətta Təbriz, Ərdəbil, Tehran şəhərlərinə tanklar yeridilib. Toqquşmalar zamanı 62 dinc sakin öldürüldüyü, 1768 nəfərin isə yaralandığı bildirilir. Eyni zamanı rejimin cəza dətələri tərəfindən 4 mindən çox həbs edilərək zindanlara atılması barədə məlumatlar qeyd olunur.

### Təbrizin bir sıra rayonlarının polis idarələri, əhəmiyyətli dövlət binaları ələ keçirilib

Aldığımız məlumata görə, Təbriz Universitetinin tələbə-gəncləri Təbrizin bir sıra rayonlarının polis idarələrini, əhəmiyyətli dövlət binalarını ələ keçiriblər. Xoy, Söhbət İlam vilayətinin Abdanan şəhəri və Ərdəbil şəhərləri tamamilə etirazçıların nəzarətinə keçib. Məlumata əsasən, polis və təhlükəsizlik qüvvələri müqavimət göstərmədən təslim olub və etirazçılara qoşulub. Dini mərkəz hesab edilən Qum şəhərində etirazçılar dindarlar əleyhinə şüarlar səsləndiriblər. Qum fars –molla rejiminin əsas dayaqlarından biri sayılır və baş verənlər xüsusi simvolik məna kəsb edir. Məlumata görə, ötən gün ölkənin qərbində polis ilə toqquşmalar zamanı daha 7 nəfər həlak olub, 34 nəfər yaralanıb. Məlikşahi rayonunda toqquşmalarda 14 təhlükəsizlik işçisi öldürülüb. Adının çəkilməməsini istəməyən Məlikşahi sakini "The Guardian" qəzetinə bildirib ki, izdiham həftəsonu hökumət əleyhinə şüarlar səsləndirib və saxlanılan etirazçıların azad edilməsini tələb edib. O, təhlükəsizlik qüvvələrinin etirazçılara atəş açdığını bildirib.

ABŞ prezidenti Donald Tramp bildirib ki, əgər rejim atəş açıb dinc etirazçıları vəhşicəsinə öldürərsə, ABŞ onların köməyinə gələcək: "Təəssüf ki, İranın belə bir təcrübəsi var. Biz isə hərəkətə keçməyə tam hazırıq". Bu arada yayılan məlumat da bildirilir ki, Donald Trampın fars-molla rejiminə qarşı qarışı xəbərdarlığından sonra ABŞ hərbi təyyarələri və xüsusi təyinatlıları Böyük Britaniya və Almaniyaya köçürülüb. Bu barədə Böyük Britaniyanın "San" nəşri yazıb. Nəşrin məlumatına görə, 160-cı Xüsusi Əməliyyatlar Aviasiya Alayının C-17 Globemaster təyyarəsi və iki AC-130 təyyarəsi İngiltərədəki RAF Fairford Hava Bazasına eniş edib. "Bu hərəkət 12 günlük müharibədə nüvə obyektlərinin bombalanmasından əvvəl ABŞ Hərbi Hava Qüvvələrinin hərəkətlərinə oxşayır. Qırıcı təyyarələrin geniş etirazlarla üzləşən fars -molla rejimin baş mollası Xameneinin izlədiyi qənaətindədir və istənilən məqamda onu Madura kimi ələ keçirə bilər. Məhz təhlükəni yaxınlığında olduğunu hiss edən rejimin baş mollası qaçaraq Moskvada gizləməyi planlaşdırdığı bildirilir. 88 yaşı tamam olacaq baş molla Ayətullah Əli Xamenei özünün bütün hakimiyyəti dövründə ən ağır dövrünü yaşadığını qeyd etsək səhv etmərik. Britaniyanın "The Times" qəzeti ona təqdim edilən kəşfiyyat sənədlərinə istinadən qeyd edir ki, Ayətullah Xameneinin təhlükəsizlik qüvvələrinin etirazları yatırmaqda çətinlik çəkdiyini anladığından ərazilərdən Rusiyaya qaçmaq planı var. Kəşfiyyat mənbəyinin qəzetə ötürdüyü bu "B planı"na görə, 88 yaşlı Xamenei, ordu və təhlükəsizlik qüvvələrinin iğtişaşları yatırmaqda aciz qaldığını görsə, oğlu da daxil olmaqla 20 köməkçisi və ailə üzvləri ilə birlikdə Tehranı tərk edəcək.

### Qələbə sorağı uzaqda deyil

Diqqətçəkən məqam ondan ibarətdir ki, ərazilərdə iqtisadi, sosial vəziyyət daha da ağırlaşıb. Ərzaq dükanlarının, bazarların önündə uzun növbələr yaranıb. İddialara görə, rejim şəhərlərin, qəsəbələrin ərzaq və digər zəruri məhsullarla təmin olunmasına əngəllər yaradır. Bu vasitə ilə rejim əhalini cəzalandırmağı düşünür. Ümumiyyətlə fakt ondan ibarətdir ki rejimin səhv, yanlış siyasəti nəticəsində ərazilərin iqtisadi çöküşü dərinləşib. Rəsmi məlumata görə, 2025-ci il üçün inflyasiya 53 %-ə çatıb, ərzaq qiymətləri isə 85-90 %-dən çox, bəzi əsas mallar isə 130%-dən çox artıb. Fars –molla rejimin Mərkəzi Bankının məlumatlarına görə, ərazilərin ümumi xarici borcu 16,47 milyard ABŞ dollarına çatıb. Bu, keçən ilin eyni dövrü ilə müqayisədə 31,8 % çoxdur. Bundan əlavə, ərazinin ən böyük banklarından biri olan "Ayandeh Bank" özünü müflis elan edib, onun aktivləri dövlətin mülkiyyətinə keçib. Bütün bunlar onu deməyə əsas verir ki, fars-molla rejiminin nəzarət etdiyi ərazilərində insanlara mübarizələrində israrlıdır. Güzəşt limitinin bitməsi, mübarizədən geri çəkilmək imkanın olmaması çox yaxın vaxtlara etirazların qələbə ilə başa çatacağından xəbər verir. Yəni çox yaxın vaxtlarda Təbrizdə bayrağımız dalğalanacaq, müstəqil dövlətin himni səslənəcək. Təbii ki, xoş xəbərin yayılacağı gün dünyanın hansı nöqətəsində yaşamasından, fəaliyyət göstərməsindən asılı olmayaraq hər bir azərbaycanlı bir-birini təbrik edib, gözaydınlığı verəcək.

***İLHAM ƏLİYEV***



**Elçin Bayramlı**

# Əks-urbanizasiya prosesi necə təmin edilə bilər?

***Son illərdə böyük şəhərlərə köç artmaqda davam edir. İnsanlar daha yaxşı iş, təhsil və həyat şəraiti üçün regionlardan paytaxta və iri şəhərlərə köç edirlər. Lakin bu axın yalnız üstünlüklər gətirmir, eyni zamanda bir sıra sosial problemlər də yaradır. Artan kirayə haqları, yüksələn yaşayış xərcləri, uzun və sıxlıq insanların gündəlik həyatını çətinləşdirir. Bu həm fiziki, həm də emosional yorğunluğa səbəb olur və sosial münasibətlərə təsir göstərir. Ümumiyyətlə, urbanizasiya-şəhərləşmə prosesi bütün dünyada və bütün ölkələrdə baş verir. Bu proses nəhəng şəhərlərin yaranmasına səbəb olur. İnsanların regionlardan, xüsusilə uçqar ərazilərdən böyük şəhərlərə axını müşahidə olunur. Bunun səbəbi böyük şəhərlərdə iş, karyera, müxtəlif təhsil və fəaliyyət sahələri üzrə daha çox imkan və dəstəyin olmasıdır. Bu səbəbdən insanlar böyük şəhərlərə köç edirlər. Lakin bu proses eyni zamanda müəyyən problemlər də yaradır. Şəhərlərdə sıxlıq meydana gəlir. Həm nəqliyyatın fəaliyyəti, həm də piyadaların hərəkəti gərginləşir. Kommunal xidmətlərdə problemlər ortaya çıxır. Şəhərlərə çox sayda insanın köçməsi iş bazarında rəqabəti artırır və mövcud iş yerləri tələbatı tam qarşılamır.***

Belə şəhərlərdə əhali sayı artdıqca, təbii olaraq qiymətlər yüksəlir: evlərin qiyməti, kirayə haqları, məhsulların və xidmətlərin qiymətləri artır. Çünki tələbat çox olur və təklif onu tam qarşılaya bilmir. Nəticədə bazar qanunlarına uyğun olaraq qiymətlər bahalaşır və gündəlik həyat çətinləşir.

Yüksək xərclər insanların gündəlik həyatını və sosial münasibətlərini də çətinləşdirir. İnsanlar işə gedib-gəlmək üçün vaxtlarının böyük hissəsini yollarda, nəqliyyat vasitələrində keçirirlər. Bu da sosial münasibətlərin zəifləməsinə səbəb olur, çünki qohumlar və dostlarla əlaqə saxlamaq üçün vaxt azalır. Şəhər həyatı daha gərgin, daha əsəbi və stresli olur. Bu isə həm vaxt baxımından ciddi problemlər yaradır, həm də insan sağlamlığına da zərər verə bilir.

Regionlarda yaşamağı daha əlçatan etmək lazımdır ki, həm sosial-mədəni inkişaf baxımından, həm iqtisadi dövriyyə və iqtisadi aktivlik baxımından, həm də müxtəlif güzəştlər hesabına insanlar orada qalmaqda maraqlı olsunlar. Məsələn, vergi güzəştləri və buna bənzər imkanlarla regionlarda yaşayanların orada qalması, eləcə də başqa yerlərdə yaşayan insanların regionlara gedib iş qurmağa maraq göstərməsi mümkündür.

Bakı şəhəri təxminən 5 milyona yaxın insanın yaşadığı və çalışdığı bir məkandır. Ölkə əhalisinin yarısı burada cəmləşib. Amma bu problemi həll etmək mümkündür. Regionların inkişafını təmin etməklə- regionlarda iş yerləri, sosial obyektlər və yeni imkanlar yaradıldıqca, əksaxın baş verə bilər.

Bizdə regionların inkişafı ilə bağlı proqramlar var. Hökumət daha böyük proqramları həyata keçirməklə regionlarda, xüsusilə Qarabağ və Şərqi Zəngəzur ərazilərində böyük imkanlar təmin edə bilər. Yaxın illərdə yarım milyon insanın bu ərazilərdə məskunlaşmasını təmin etmək mümkündür. Bu isə iri şəhərlərdə yüksək xərclərin insanların gündəlik həyatını, yaşayışını və sosial münasibətlərini çətinləşdirməsinin qarşısını müəyyən qədər ala bilər. Buna görə də, regionlara daha çox xarici və daxili investisiyalar cəlb olunmalı, iş adamlarına güzəştlər verilməlidir. Xüsusilə aqrar sektorda bu təşviqlər vacibdir. Kommunal xidmətlərdə və digər sahələrdə də müəyyən güzəştlər tətbiq edilməlidir. İnsanların paytaxtdan regionlara köç etməsi stimullaşdırılmalıdır. Böyük şəhərlərdə əhali sıxlığı azaldılmalı, kənd və rayonlardan köç etmiş insanlar yenidən öz bölgələrinə qayıtmağa həvəsləndirilməlidir. Bütün bu məsələlər kompleks şəkildə həll olunmalıdır. Əgər bu tədbirlər həyata keçirilərsə, iri şəhərlərdə sıxlıq azalacaq, gündəlik həyat asanlaşacaq və insanlar regionlarda da rahat yaşayacaqlar. Artıq 2030-cu il üçün qəbul edilmiş milli prioritetlər və görülən işlər göstərir ki, ölkə əhalisinin balanslı paylanması, regionların inkişafı və iqtisadi imkanların tarazlı şəkildə bölüşdürülməsi uzunmüddətli perspektivdə davamlı inkişafı təmin edəcək. Gələcək illərdə bu dəyişikliklərin gündəlik həyatımızı necə formalaşdıracağını izləmək maraqlı olacaq.

# Dürüstlüyün bioloji siqnalı: qızarmaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı " istiqaməti çərçivəsində hazırlanıb.*



***Utancaqlıq və buna görə qızarmaq əsrlər boyu alimləri və filosofları çaşdıran unikal insan fenomenləridir. Utananda niyə qızarırıq? Buna cavab vermək üçün utancın bioloji, psixoloji və mədəni aspektlərini araşdıranda məlum olur ki, insan ünsiyyətində bir çox jest və üz ifadələri süni ifadə edilə bilər.***

Məsələn, bir insan özünü süni şəkildə gülümsər və ya kədərli göstərə bilər və ətrafdakı insanlar bunun fərqinə varmazlar. Qızarmaq yeganə insani ifadədir ki saxta yaradıla bilinmir. Elm qızara bilmə xüsusiyyətini "ən dürüst insan reaksiyası" kimi qəbul edir və onu "dürüstlüyün bioloji siqnalı" kimi təsnifatlandırır.

Qızarma prosesi, qeyri-iradi fəaliyyət göstərən avtonom sinir sistemi tərəfindən idarə olunur. İnsan utanc, günahkarlıq və ya xəcalət hiss etdikdə, bədən bu emosional qarışıqlığı bir növ sosial təhlükə kimi qəbul edir və qavrayır. Bu qavramanın nəticəsi olaraq simpatik sinir sistemi aktivləşir və adrenalin ifraz olunur, üzdəki kapilyarlar genişlənir, bu da həmin bölgəyə daha çox qan vurulmasına səbəb olur və beləcə qızarma meydana çıxır. Bu proses könüllü əzələ hərəkətləri ilə təqlid edilə bilməz və ya fiziki müdaxilə olmadan tamamilə gizlədilə bilməz.



Qızarmaq adətən qeyri-iradi və qısamüddətli olur. Bəzi insanlarda bu reaksiya daha aydın şəkildə özünü göstərə bilər ki, bu da utancaqlıq və özünəinamsızlıqla və bu, insanın qızarmağı idarə edən onurğasındakı kiçik sinirlərin kəsilməsini seçməsinə səbəb ola bilər. Endotorasik simpatektomiya adlanan bu əməliyyatın qızarmağı əlaqələndirilə bilər. Əgər qızarmaq tez-tez baş verirsə və narahatedicidirsə, tibbi vəziyyətin əlaməti ola biləcəyi üçün dermatoloqa müraciət etmək faydalı ola bilər. Utandığınız zaman bədəniniz adrenalin ifraz edir. Bu hormon təbii stimullaşdırıcıdır, sizi təhlükəyə hazırlamaq üçün nəfəs alma və ürək döyüntülərinizi sürətləndirir. Göz bəbəkləriniz böyüyür və bu da mümkün qədər çox vizual məlumat qəbul etməyə imkan verir, həzm prosesi isə enerjini əzələlərinizə yönləndirmək üçün yavaşlayır. Adrenalin həmçinin qan axını və oksigen çatdırılmasını yaxşılaşdırmaq üçün qan damarlarınızın genişlənməsinə səbəb olur. Qızarmaqda da belədir. Bu qızarmış görünüş, bədənin utancverici bir vəziyyətə necə reaksiya verdiyini göstərir.

Bəzi insanlar qızarmaq reaksiyasını məhdudlaşdırmaq üçün tibbi əməliyyat keçirməyi seçirlər. Eritrofobiya qızarmaq qorxusudur



məhdudlaşdırdığı bildirilir.

Çarlz Darvin qızarmağı insanları digər heyvanlardan fərqləndirən ən qəribə və ən insani ifadə kimi təsvir edir. Müasir təkamül psixologiyasına görə, qızarma sosial korreksiya mexanizmidir. Səhv etdikdə qızarmaq ətrafımızdakılara bildirir ki, mən sosial qaydanı pozduğumun fərqindəyəm, bunun üçün peşmançılıq hissi keçirirəm. Yəni, üzü qızaran insan emosional vəziyyətini xarici dünyaya bir növ aşkar edir. Bu insanı həssas etsə də, əslində sosial əlaqələri gücləndirir, çünki səmimiyyətin və həqiqi emosional əlaqənin sübutu hesab olunur. Bunun iradəmizdən kənarda baş verməsi bu reaksiyanı idarəolunmaz dürüstlük möhürünə çevirir.

Əslində qlobal cəmiyyət olaraq utanmağı unutmuşuq. Bu vəziyyət isə cəmiyyətdəki mənəvi tənəzzülə, səhv hərəkətlərin normallaşmasına və fərdlərin yaşadığı məsuliyyət itkisinə gətirib çıxarıb. Utanc və qızarmaq hissi əslində özünüdərk və sosial uyğunluğun göstəricisidir. Müasir həyatın yaratdığı emosional darıxdırıcılıq, etinasızlıq səbəbindən qızarmaq kimi təbii reaksiyanın azaldığını da müşahidə edirik. İndi insanlar artıq əvvəlki kimi asanlıqla qızarmağa meylli olmaya bilirlər; başqa sözlə, onlar bu təbii reaksiyanı unutmuş ola bilərlər. Nəticə etibarilə utanıb qızarmaq hissinin yox olması həm fərdi, həm də ictimai səviyyədə problemlərə işarə edir. Bu hiss, insanın doğrunu yanlışdan ayırd etməsi və sosial nizamın qorunması üçün zəruri olan əsas hisslərdən biridir.

***Lalə Mehralı***

# İnkişaf yolunun dəqiq konturları



*Nizami NOVRUZOV, texnika üzrə fəlsəfə doktoru*

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ölkəmizin yeni dövrdəki strateji hədəflərini müəyyən edən fundamental bir siyasi proqram xarakteri daşıyır. Dövlətimizin başçısının ötən il baş verən əsas hadisələr, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyulması, Zəngəzur dəhlizinin işə salınması, artıq sülh şəraitində yaşamağımız və digər qlobal məsələlər barəsində fikirləri böyük maraqla qarşılanmışdır.

Bu tarixi müsahibə, sadəcə, keçən ilin hesabatı deyil, həm də qalib bir dövlətin dünyaya təqdim etdiyi sabitlik manifestidir. Məhz buna görə də dövlətimizin başçısının hər bir fikri analitik dərinliyi və milli mənafelərə söykənən qətiyyəti ilə seçilir.

Prezident İlham Əliyevin liderlik fəlsəfəsinin mərkəzində dayanan güclü dövlət konsepti müsahibədə özünün ən kamil ifadəsini tapdı. Dövlətimizin başçısının iqtisadi suverenliklə bağlı gətirdiyi arqumentlər Azərbaycanın maliyyə müstəqilliyinin hər hansı kənar təzyiq vasitəsini sıfra endirdiyini bir daha sübut etdi. Yəni, dövlət başçımız xüsusilə beynəlxalq maliyyə reytinqlərindəki yüksəlişi və qızıl ehtiyatlarının artırılmasını strateji bir zireh kimi xarakterizə etdi.

Ötən ilin yadda qalan prioritet məsələlərindən birinin də Azərbaycan-Amerika münasibətlərində irəliyə doğru atılan qətiyyətli addımın olduğunu vurğulamaq istəyirəm. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ABŞ-Azərbaycan əlaqələrinin üzərində qara bulud kimi 907-ci düzəliş fırlanırdı. Nəhayət 907-ci düzəliş 33 ildən sonra ötən il ləğv olundu. Azərbaycan dövlətinin, onun lideri İlham Əliyevin düzgün müəyyənləşdirdiyi xarici siyasət sayəsində Amerika-Azərbaycan münasibətləri yeni mərhələyə qədəm qoymuşdur.Azərbaycanın ədalətə və beynəlxalq hüquqa söykənən müstəqil xarici siyasətinin əsas tərkib hissələri olan müxtəlif dövlətlərlə ikitərəfli və beynəlxalq təşkilatlar daxilində əlaqələrin inkişafında mühüm uğurlara imza atıldı. Xarici siyasətlə bağlı digər önəmli nailiyyət ölkəmizin Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsidir. Bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Eyni zamanda böyük əhəmiyyət daşıyan hadisələrdən biri də Çinlə olan strateji tərəfdaşlığımızdır. Çin ilə əmtəə dövriyyəsi 4 milyard dolları keçib.

Ordu quruculuğu məsələsində səsləndirilən fikirlər dövlətimizin hərbi qüdrətinin kəmiyyət və keyfiyyət baxımından çatdığı zirvəni göstərir. Yerli müdafiə sənayesinin ixrac potensialının yüksəlməsi regionda sülhün ən böyük təminatçısının məhz Azərbaycan Ordusu olduğunu təsdiqləyir.

İşğaldan azad edilmiş ərazilərdəki bərpa prosesini Böyük Qayıdışın növbəti mərhələsi kimi təqdim edən dövlətimizin başçısı Qarabağın dünyanın ən modern bölgələrindən birinə çevriləcəyinə dair güclü iradənin olduğunu nümayiş etdirib.Zəngəzur dəhlizinin açılması və Orta Dəhlizin strateji əhəmiyyəti barədə verilən analitik şərhlər Azərbaycanın qlobal logistik qovşaq statusunu möhkəmləndirir. Prezident İlham Əliyev vurğuladı ki, bizim iştirakımız olmadan regionda heç bir strateji layihə reallaşa bilməz.

Müsahibədə sosial ədalət prinsiplərinə və vətəndaş rifahına ayrılan xüsusi yer xalq-iqtidar birliyinin nə qədər səmimi təməllər üzərində qurulduğunun bariz nümunəsidir. Milli-mənəvi dəyərlərin, xüsusilə Azərbaycan dilinin saflığının qorunması ilə bağlı çağırışlar liderin öz xalqının tarixinə və kimliyinə olan dərin bağlılığının təzahürüdür. Dövlətimizin başçısının qlobal iqlim dəyişikliyi və COP29 sonrası Azərbaycanın yaşıl enerji strategiyası haqqındakı vizyonu ölkəmizin gələcək texnologiyalar dövrünə tam hazır olduğunu göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan neft amilindən asılılığı minimuma endirərək intellektual resurslara əsaslanan yeni iqtisadi modelə uğurla keçid edir. Bir sözlə qeyd etmək istəyirəm ki, müsahibənin hər bir cümləsi ölkəmizin güclü liderlik, aydın məqsədlər və milli maraqlara əsaslanan siyasət sayəsində inamla irəlilədiyini sübut edir.Bu müsahibə modern Azərbaycanın dövlətçilik tarixinin ən parlaq və ən mühüm sənədlərindən biri kimi yaddaşlara həkk olundu.

# “Kənd çolpası” adı ilə aldatma: bazarlarda rənglənmiş toyuq oyunu



ARAŞDIRMA

***Son vaxtlar bazarlarda və küçə satışlarında “kənd çolpası” adı ilə toyuq məhsullarının satıldığı ilə bağlı xəbər və iddialar gündəmə gəlir. Bu ifadə çox vaxt təbii kənd toyuğu təsəvvürü yaratmaq üçün istifadə edilir, amma əslində bunun arxasında istehlakçıların aldadılması və qida təhlükəsizliyi baxımından risklər dayanır. SİA mövzu ilə bağlı araşdırma edib.***

Əhalinin bu cür məhsulları seçməsi sosial iqtisadi vəziyyətlə əlaqədar ola bilər: bazarda yüksək qiymətli təbii kənd toyuqlarına nisbətən “çolpa” kimi daha ucuz məhsullar cəlbedici görünür. Lakin son reydlər və laborator analizlər göstərir ki, bu ad altında kütləvi şəkildə rənglənən və qanunsuz emal edilmiş toyuqlar satılır. Bu isə həm sağlamlıq, həm də istehlakçı hüquqları baxımından ciddi problemlər doğurur.

### “Kənd çolpası” nədir?

“Kənd çolpası” tez-tez kənd toyuğu kimi təqdim olunur, yəni fermer şəraitində, təbii qida ilə bəslənmiş, dərmanlardan uzaq toyuq kimi təsvir edilir. Real kənd toyuğu isə adətən həyət quşlarından alınır və baxım şəraiti fərqli olur, yəni adətən sənaye broyler toyuqları ilə eyniləşdirməmək lazımdır. Elanlarda da “kənd çolpası” adı ilə doğrudan da həyətdə böyümüş toyuqlar satıldığı göstərilir.

### Rənglənmiş toyuqlar iddiası və reyd nəticələri

Qida Təhlükəsizliyi Agentliyinin reydləri

AQTA tərəfindən keçirilən yoxlamalarda bəzi həyətyanı və kəsim məntəqələrində qanunsuz fəaliyyət aşkarlanıb:

Xırdalanda toyuqlar rənglənərək “kənd çolpası” adı ilə satılırdı. Burada baytar sənədləri və sanitar-gigiyenik tələblər pozulurdu. Bu toyuqlara mənşəyi məlum olmayan rənglər tətbiq edilmişdi, yəni əslində broyler və ya başqa toyuq növləri üzərinə əlavə rəng və təsvirlər verilərək aldatma yaradılırdı. Müəssisələrin fəaliyyəti dayandırılıb və inzibati icraat başlanıb.

### Tədqiqat analizləri

Laborator analizlərdə toyuqlar üzərinə Tartrazin (E102) kimi sintetik sarı boya maddəsinin vurulduğu müəyyən edilib. Bu maddə qida əlavəsi olmaqla yanaşı, allergik reaksiyalar və həssaslıq yarada bilər. Belə maddələr qida məhsullarının xarici görünüşünü dəyişdirə bilər, amma məhsulun həqiqi mənşəyi və keyfiyyətini göstərməz. Niyə bu problem yaranır?

### İstehlakçı tələbi və qiymət fərqi

Bazarlarda və küçə satış nöqtələrində “kənd çolpası” adı ilə çox aşağı qiymətə (məsələn, 3–10 AZN arası) kəsilmiş toyuqlar satılır ki, bu da istehlakçıları cəlb edir. Bəzi hallarda bu məhsulların əslində broyler toyuqlar olduğu iddia edilir. Burada istehsal yeri, qida dəyəri və sağlamlıq normaları məlum olmur.

### Sağlamlıq riskləri

Rənglənmiş və antisanitar şəraitdə emal olunmuş toyuq məhsullarının istehlakı aşağıdakı riskləri yarada bilər. Allergik reaksiyalar, rəngləndirici maddələr (məsələn, E102) bəzi insanlarda həssaslıq yarada bilər. Bakterial infeksiyalar, sanitar normalar pozulduqda salmonella və digər mikroorqanizmlər məhsula keçə bilər. Məhsulun nəzarətsiz olması, dərman və antibiotik qalıqları kimi gizli risklər də daşıya bilər.

### Rəsmi çağırışlar və tövsiyələr

Qida Təhlükəsizliyi Agentliyi tərəfindən belə hallara qarşı reydlər davam etdirilir və qanunsuz satışa çıxarılan məhsullar dövriyyədən çıxarılır. İstehlakçılara rəsmi sertifikat və sənədləri olan, etiketi düzgün göstərilmiş və sənaye şəraitində yetişdirilmiş məhsullar almaq tövsiyə olunur.

“Kənd çolpası” adı bəzən çox ucuz və cəlbedici toyuq məhsullarını ifadə edir. Lakin reallıqda bəzi hallarda bu toyuqlara süni şəkildə rəng verilir və qanunsuz satışa çıxarılır. Bu, həm istehlakçını aldadır, həm də qida təhlükəsizliyi baxımından risklər yaradır. Mütəmadi olaraq AQTA tərəfindən reydlər keçirilməkdədir və vətəndaşlara diqqətli olmaq tövsiyə edilir.

***Ayşən Vəli***


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Mərkəzi Gömrük Hospitalının uşaq nevroloqu Türkiyədə 61-ci Milli Nevroloji Konqresdə iştirak edib

***Mərkəzi Gömrük Hospitalının Pediatriya şöbəsinin uşaq nevropatoloqu Dr.Mehriban Məmmədova Türkiyə Nevrologiya Cəmiyyətinin təşkilatçılığı ilə 2025-ci ilin dekabr ayında Türkiyənin Antalya şəhərində keçirilən 61-ci Milli Nevroloji Konqresində iştirak edib.***




Nevrologiya sahəsində ən son elmi yeniliklərin, müasir diaqnostika və müalicə yanaşmalarının müzakirə olunduğu bu nüfuzlu beynəlxalq tədbir müxtəlif ölkələrdən olan aparıcı mütəxəssisləri bir araya gətirib. Konqres çərçivəsində uşaq nevrologiyası sahəsində aktual mövzular, klinik təcrübələr və innovativ yanaşmalar ətrafında aparılan geniş müzakirələr aparılıb. Tədbirin sonunda Dr. Mehriban Məmmədovaya 61-ci Milli Nevroloji Konqresdə iştirakına görə sertifikat təqdim olunub.

# “Fənərbaxça” 29 milyon avroya futbolçu transfer etdi



***“Fənərbaxça" "Latsio"nun futbolçusu Matteo Genduzinin transferi ilə bağlı rəsmi açıqlama yayıb.***

İstanbul klubunun rəsmi açıqlamasında deyilir ki, Fransa millisinin üzvü trasnfer danışıqlarını yekunlaşdırmaq və tibbi müayinədən keçmək üçün artıq İstanbula yollanıb. Tanınmış insayder Fabritsio Romanoun məlumatına görə, bu transfer üçün ”Fənərbaxça” Roma təmsilçisinə 29 milyon avro ödəyəcək.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
**Tiraj: 1550**